**Sabir ƏLƏKBƏROV**
AMK-nın baş müəllimi
Ünvan: Bakı, Yasamal rayonu, Ələsgər Ələkbərov 7

# "XOCƏSTƏ" VƏ "ŞİKƏSTEYİ-FARS" MUĞAM ŞÖBƏLƏRİNİN FƏRQİ

***Xülasə:*** *Məqalədə muğam şöbələri "Şikəsteyi-fars" və "Xocəstə"nin fərqindən danışılır. Müxtəlif ifaçıların çalğı nümunələrinin not yazıları ilə nümayiş etdirilməsi məsələnin gizli məqamlarına aydınlıq gətirir. Qeyd olunan fərqlərə xüsusi diqqət verilməsi tövsiyə olunur.*

***Açar sözlər:*** *"Şikəsteyi-fars", "Xocəstə", Mirzə Mansur, Hacı Məmmədov, kadensiya*

Muğamların istər Şərq, istər Qərb dinləyicisinin zövqünü oxşayan, heyrətləndirən səbəblərdən biri onun quruluşu, ifa üsulları, səsin-sözün məlahəti, ifaçının istedad və biliyindən asılıdır. Azərbaycanlı olmayan hər bir kəs, sözün mənasını başa düşməsə də musiqinin temperamentini, məqam müxtəlifliyini, ifaçının işlətdiyi texniki üsulları hiss edir və alqışlayır. Adi dinləyici muğamda işlənən şöbə və guşələrin adını, təsnifatını bilməsə də professional musiqiçi bütün ardıcıllıq incəliklərini bilməlidir. İfaçı musiqi cümlələrinin sadədən-mürəkkəbə prinsipini, müxtəlif məqamlardan keçib, axırda əsas məqama qayıda bilmək məharəti nümayiş etdirməklə muğamın cazibəsini artırmış olar.

Bəzən eyni məqama aid olan muğam fərqli adla başqa pərdədə səsləndikdə xarakteri dəyişir. Misal üçün, rast məqamına aid olan Mahur Hindi, Orta Mahur, Bayatı-Qacar, Qatar, Dügah, segah məqamına aid olan Orta Segah, Haşım Segah, Mirzə Hüseyn Segahı, Xaric Segah və başqa segahlar səs yüksəkliyinin dəyişməsi ilə fərqli səslənmə effekti əldə edir, müxtəlif pərdələrdə ifa olunmasına rəğmən müxtəlif əhvali-ruhiyyə yaradırlar. Segah məqamına aid olan "Şikəsteyi-fars" şöbəsi "Segah"dan tersiya yüksək səsləndiyi üçün daha artıq hərarət, yanğı gətirir. Yeni məna, yeni təsir qüvvəsi ilə seçilən bir şöbə də vardır ki, onun adı "Xocəstə"dir. "Xocəstə" vasitəsi ilə sanki "Şikəsteyi-fars"dan "Segah"a meyl olunur, yeni aura, yeni əhval-ruhiyyə yaranır. "Xocəstə" sözü incə, gözəl mənasını verir. Muğamın ifası zamanı yaranan təzad dinləyiciyə muğamın cazibə qüvvəsini göstərir. "Xocəstə" "Şikəsteyi-fars"ın daxilində ifa olunduğu üçün ona bənzəyir, amma biraz fərqli kadensiyaya malikdir. Bəzən ifaçılar özləri də bilmədən bu iki guşəni qarışdırırlar. Bunun nəticəsində "Şikəsteyi-fars"ın "ayağ"ını səhvən "Xocəstə" "ayağ"ı kimi və ya əksinə ifa edirlər.

Xalq artisti Bəhram Mansurovun ifalarına müraciət etdikdə "Xocəstə"ni bir neçə variantda – əvvəldə, ortada, sonda görə bilirik. Əvvəldə ifa olunanda "Şikəsteyi-fars"ı "Xocəstə" adlandıra bilərik. Ortada və axırda ifa olunanda isə "Şikəsteyi-fars" və "Xocəstə" hər biri öz adı ilə deyilməlidir. Çünki hər ikisinin "ayaq"ları ayrı-ayrıdır.

Rast muğamında "Xocəstə" əvvəldə səsləndiyi üçün (Bəhram Mansurovun ifasında) "Şikəsteyi-fars" "Xocəstə" adlana bilər.

**Nümunə 1**

**"Xocəstə"**

**Bəhram Mansurovun ifası**



I nümunənin axırıncı xanəsi "Xocəstə"nin ayağıdır. Mən "Xocəstə"ni xalq artisti virtioz tarzən Hacı Məmmədovdan öyrənmişəm. O, "Şikəsteyi-fars"ın III cümləsini "Xocəstə" ilə tamamlayırdı.

**Nümunə 2**

**"Şikəsteyi-fars"**

**Hacı Məmmədovun ifası**





Nümunə 2-dən ilk xanə "Şikəsteyi-fars"ın bariz nümunəsidir. Fikir versək № 1-dəki "Xocəstə" "ayağı" ***h, a, g, d*** olduğu halda № 2-də ***c, h, d, d*** kimi səslənir. Ancaq III cümlənin sonunda "Xocəstə" çaldıqda ***h, a, g, d, d*** melodik gedişi əmələ gəlir. Çünki "Xocəstə" ilə "Şikəsteyi-fars"ın fərqi onların kadansında dəqiq görünür. Muğamın kamil bilicisi Mirzə Mansur Mansurov vaxtı ilə qardaşı oğlu Bəhram Mansurovun evində maqnitofon lentinə yazdırdığı "Xocəstə" ifası eyni ilə Hacı Məmmədovun ifası ilə üst-üstə düşür. Belə nəticəyə gəlmək olar ki, Hacı Məmmədov klassik muğam ifaçılığını böyük sənətkarlardan dəqiq öyrənib, sonra dinləyicilərin ixtiyarına verirdi. Ona görə də Hacı Məmmədovun ifaları bu günə qədər dinləyiciləri heyrətləndirir və gələcəkdə də heyrətləndirəcək.

Professor Rafiq Musazadə "Muğamın tədrisi metodikası" kitabında (2) "Şikəsteyi-fars" və "Xocəstə" problemini aydın və dəqiq təhlil etmiş və bunların fərqlərini not nümunələri ilə göstərmişdir.

**Nümunə 3**

**"Xocəstə"**

**Mansur Mansurovun ifası**

*Not yazısı T.Quliyev*



"Mirzə Hüseyn Segah"ı muğamında "Şikəsteyi-fars"ın "Xocəstə" ilə əvəz olunması yerinə düşür. "Mirzə Hüseyn Segah"ında "Şikəsteyi-fars" bir növ tamamlanmamış cümlə kimi görünür. Amma axırı "Xocəstə" ilə tamamlandıqda sanki o, "Segah"a qayıtmış olur və "Mirzə Hüseyn Segah"ın o biri guşələrə düşməsi üçün tramplin rolunu oynayır. Bu səbəbdən "Mirzə Hüseyn Segah"da çox vaxt "Şikəsteyi-

fars" oxunmurdu. "Şur" və "Bayatı Qacar" muğamlarında mövcud olan "Şikəsteyi-fars" və "Xocəstə" xüsusi funksiya daşıyır. F pərdəsində səslənən "Şikəsteyi-fars" lal pərdədə, az effektli mövqedə yerləşdiyi üçün "Xocəstə" müəyyən boşluğu doldurur. Ona görə də "Şikəsteyi-fars"ı "Xocəstə" ilə başlamaq daha məqsədəuyğun sayılır. F pərdəsinin səslənməsini möhkəmləndirmək üçün bəzən C kök simi F köklənir ki, "Şikəsteyi-fars" üçün dəm funksiyası daşısın, ya da "Xocəstə" ilə F daha qabarıq səslənsin.

Beləliklə, "Xocəstə"nin muğamlarımızdakı rolu öz səslənmə xüsusiyyətləri ilə böyük əhəmiyyət daşıyır. Konkret not nümunəsi ilə fikrimizi tamamlayaq.

"Rast" kökündə "Xocəstə" ayağı



"Rast" kökündə "Şikəsteyi-fars" ayağı



İfaçılara bu kiçik, amma, əsas fərqə fikir verməlceri tövsiyyə olunur.

**ƏDƏBİYYAT:**

1. Quliyev T. "Rast" muğamı M.Mansurovun ifasında. B.: Azərnəşr, 1936, 60 s.
2. Musazadə R. Muğamın tədrisi metodikası. B.: MBM, 1912, 192 s.

**Сабир АЛЕКБЕРОВ**
Старший преподаватель АНК

**РАЗЛИЧИЯ МЕЖДУ МУГАМНЫМИ РАЗДЕЛАМИ «ХОДЖЕСТЕ» И «ШИКЕСТЕЙИ-ФАРС»**

***Резюме:*** *Представленная статья посвящена актуальной проблеме - шобе «Шикестейи-фарс» и «Ходжесте» на примере мугама «Раст». В нотных примерах раскрываются скрытые моменты в исполнении разных исполнителей одного того же шобе, разъясняется роль и значения этих мелодий.*

***Ключевые слова:*** *«Шикестейи-фарс, «Ходжесте», Мирза Мансур, Гаджи Мамедов, каденция*

**Sabir ALAKBAROV**
Senior lecturer of ANC

**DISTINCTION BETWEEN "XOJESTE" AND "SHIKESTEYI-FARS"**

***Summary:*** *The article says about the pressing problem of the distinction between "Shikesteyi-fars" and "Xojeste". In music examples is shown hidden moments in performance of the different performers of this goushe, the role and values of these melodies is explained.*

***Key words:*** *"Shikesteyi-fars", "Xojeste", Mirza Mansur, Haji Mammadov, cadency*

**Rəyçilər:** dosent Malik Mansurov
dosent Ramiz Əzizov